# Prezident İlham Əliyevin Ali Ordenlə təltif olunması Türk dünyası qarşısında xidmətlərinə verilən ədalətli qiymətdir

***Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması onun türk dünyası qarşısında xidmətlərinə verilən ədalətli qiymətdir.***

Deputat qeyd edib ki, istər Türk Şurasının yaranması və fəaliyyətinin təşkili, istər bu təşkilatın genişlənməsi və beynəlxalq nüfuzunun artması istiqamətində Azərbaycan Prezidentinin gördüyü işlər olduqca strateji əhəmiyyət kəsb edib: "Nəticədə bu qurum hazırda beynəlxalq təşkilatlar arasında özünəməxsus yer tutması ilə bərabər, həm də mühüm strateji cazibə mərkəzlərindən birinə çevirilib. Ona üzv olmaq istəyən ölkələrin sayı ciddi şəkildə artıb. Ancaq Prezident İlham Əliyevin türk dünyası qarşısında ən böyük xidməti 100 il əvvəl pozulmuş bu vahid etnosiyasi coğrafiyanın fiziki bütövlüyünü bərpa etməsidir. Bu, tarixi hadisədir və Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Hikmət Babaoğlu vurğulayıb ki, Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin liderləri Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin verilməsi ilə bağlı qərar qəbul edərkən məhz bu ümumi mənafelərə xidmət edən reallığı nəzərə alıblar: "Ali Ordeni təqdim edərkən qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinə xitabən, onu müzəffər Ali Baş Komandan adlandıraraq bidirdi ki, qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala qısa müddətdə – 44 günə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Doğrudan da, türk dünyasının fiziki bütövlüyünə xidmət edəcək bu mühüm tarixi hadisə bütün türk ölkələri üçün yeni iqtisadi-siyasi və strateji perspektivlər yaradır".

Deputat bildirib ki, hələ 2009-cu ildə Naxçıvanda Türk Şurası yaradılarkən Azərbaycan Prezidenti İlham Əliyev məhz bu perspektivlərə toxunaraq türk dünyasının fiziki birləşməsi, Naxçıvanın anklav vəziyyətdən çıxarılması



istiqamətində mühüm addımların atılması məsələlərinə toxunmuşdu: "Hazırda isə həyata keçirilən dərin hərbi-siyasi strategiya sayəsində bu, artıq reallıqdır. Eyni zamanada, Türk Dövlətləri Təşkilatına yeni üzvlərin qəbul edilməsi, xüsusən də qardaş Türkmənistanın bu təşkilata cəlb edilməsi, qardaş Özbəkistanın tamhüquqlu üzv olaraq qəbul edilməsi də son illərdə təşkilatın tarixində baş verən mühüm hadisələrdir. Ona görə də Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdimhammedovun bu təşkilatın zirvə toplantısında iştirak etməsini məmnuniyyətlə qeyd etdi. Çünki qısa müddət öncə məhz Azərbaycanın səyləri ilə Türkmənistan və Azərbaycan arasında vaxtilə mübahisə mövzusu olan neft yatağı "Dostluq" adı altında iki qardaş ölkə tərəfindən ortaq istismara cəlb eidilmiş, bundan sonra Türkmənistan təşkilata üz tutmaq barədə qərar qəbul etmişdir.

Xüsusi qeyd edilməli bir məsələ isə ondan ibarətdir ki, Azərbaycanın əldə etdiyi tarixi zəfər bütün qardaş xalqların ilham mənbəyinə çevrilmiş, onlarda milli güvən və qürur hissi yaratmışdır. Qardaş Türkiyə və Azərbaycanın güc nümayiş etdirmək və milli iradə ortaya qoymaq cəsarəti isə hazırkı mürəkkəb beynəlxalq şərtlər içərisində qibtə doğuran bir nümunədir. Bu, eyni zamanda, Türk Dövlətləri Təşkilatını yeni cəlbedici formata çevirir. Azərbaycan Prezidenti İlham Əliyev ona təqdim edilən Ali Ordeni Azərbaycan xalqının adından qəbul etdi və bu ordeninin məhz xalqımıza verildiyini dedi. Bu, bir milli liderin öz xalqı ilə bütövlüyünün təcəssümüdür".

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 14 noyabr.- S.2.